# SÖZÜN ADLI TƏRƏFİ

## *Şair-publisist Vəliyulla Novruza ad günü təbriki!*

Əzizimiz Vəliyulla Novruz!

Səni - Azərbaycanın çoxları tərəfindən sevilən, çoxlarımız üçün sevgili dost, odlu bir şair, ruhu etibarilə mükəmməl tənqidçi-publisist olan sənətkarı, xalqımızın sevimli oğlunu təbrik edirəm.

Əzizimiz dedim... bu da sənin özünün qazandığın bir rütbədir. Çünki, səni yaxından tanıdıqca , müşahidə etdikcə görürəm ki, təkcə bir dost üçün əziz deyilsən, səni tanıyanların, sənə ruhən bağlı olanların hər birinə əziz və doğmasan.

Zaman keçdikcə sən dostların orbitində öz yolu, trayektoriyası, cazibə dairəsi olan bir insansan, planetsən. Ola bilsin ki, səni tanımayanların bir çoxuna bu epitetlər bir qədər hiperbolik görünsün, bir qədər mübaliğəli təsir bağışlasın. Amma sənin cazibə mühitində olmaq bəs edir ki, hər kəsi inandıra biləsən. Qardaşım, ayrıca planet ola bilməyin, böyük insan cazibəsi yaratmağın hec bir qeyri-adi sirri yoxdur. Bunun yalnız bircə mümkün tərəfi var; gərək səmimi olasan.

Tanrı sənə səmimiyyəti axıracan bəxş edib, beş əllə verib. Necə ki, şairliyi tükənməz ilhamla sənin varlığına hopdurub.

İntiqam Qasımzadə demiş: "Şair çoxdur, amma sənin kimi bütün varlığı ilə şair olan çox azdır". Poeziya cəbhəsində Qarabağ döyüşçüsü kimi bütün əzəmətinlə görünürsən. Eyni zamanda, sən lirik-psixoloji şeir ustasısan və sanki uzun müddət əyalət buludunun arxasında gizlənibsən. Son illər parlaq, poetik istedadınla həmin buludları çox sürətlə dağıdaraq hər kəsə bütün aydınlığınla göründün. Sənin şeirlərində dövrümüzün qəlbi çırpınır, müasirlərin nəbzi döyünür. Ona görə də şeirlərinlə oxucuların varlığına nüfuz edə bilirsən. Cəlilabad kimi zəngin mühitdə də ayrıca görünmək gücündəsən... Bölgədə yaşayan çox böyük istedad sahibləri arasında sevilir, seçilirsən. Çoxlarının adlarını haqlı olaraq çəkə bilərəm, yalnız bir səbəb... kiminsə adını texniki olaraq unutmaq olar. Bu, könül qırıqlığı yaradar...

Nə dəxli, bütün istedadlara sevgi ilə yazdığım bu qeydləri hər kəs ürək açıqlığı ilə ziyalı haqqında söz kimi oxuya bilər...

*(Davamı 4-cü səhifədə)*

# SÖZÜN ADLI TƏRƏFİ

## *Şair, publisist Vəliyulla Novruza ad günü təbriki*

*(Əvvəli 1-ci səhifədə)*

Əzizim Vəliyulla Novruz, bəzi müəlliflər iddia edirlər ki, məktub janrında özlərini daha çox ifadə edə bilirlər. Bir vaxt V.Q.Belinski də "Qoqola məktub" əsəri ilə daha çox pərvazlanmış, daha çox görünmüşdü. Ancaq hadisələrin mahiyyətinə varmaqda proseslərə soyuqqanlı münasibəti daha üstün bilənlər də az deyil. Bu mənada, sənin yaradıcılığını öyrənmək, təqdir etmək baxımından bir çox müəlliflərin - professor Qəzənfər Kazımovun, tənqidçi ədəbiyyatşünas Qurban Bayramovun, şair Qəşəm Nəcəfzadənin... və digərlərinin düşüncələri kifayət qədər bizə əsas verir ki, səni ciddi bir müəllif kimi araşdıraq.

Sözün, sənətin dəyəri o vaxt yüksəlir ki, o, sənətkarla, söz sahibi ilə təmasda öyrənilir. Və bu mənada, Vəliyulla Novruz sənəti görkəmli söz sahiblərinin təması ilə müəyyən mahiyyət kəsb edir, sözü-sənəti dəyərləndirən adamların - söz-sənət xiridarlarının sənət düşüncəsində mövzuya çevrilir, araşdırma obyektinə çevrilir. Bax, bu mənada, Vəliyulla Novruzun yaradıcılığı bizi sözün müxtəlif qatlarında görünən mənaları anlamağa sövq edir.

Professor, Əməkdar elm xadimi Qəzənfər Kazımov Vəliyulla Novruzun sözünün içindəki mahiyyəti, mənanı kifayət qədər indiki oxucu anlamına çatdırmaq üçün doğmalıqla, səmimiyyətlə çağırış edir: "Bir şair kimi, Vəliyullanın mövzular aləmi genişdir. Vətən və ana sevgisi, təbiətə, insana, torpağa məhəbbət, hərisliyə, haqsızlığa, paxıllığa, yaltaqlığa, ədalətsizliyə, zülm və zorakılığa, düşmənə nifrət, təmizlik, saflıq, ata-baba, əcdad, dostluq etiqadları, valideyn sevgisi kimi müqəddəs duyğular onun şeirlərində daha geniş yer tutur..." Göründüyü kimi, xalqın görkəmli alimi şairin yaradıcılığında əsas mənəvi problemləri diqqətə çəkir. Yəni şair zülm və zorakılığa, mütiliyə və yaltaqlığa... və çoxsaylı bu cür yaramazlıqlara qarşı mübarizə aparırsa, deməli, o şair həqiqətən xalqın övladıdır. Onsuz da, hər hansı bir şair - əlbəttə, xalqını sevən şair - rahat yaşaya bilmir. Bu, mümkün olan hal deyil. Bu mənada, professor Q.Kazımovun fikrinin davamı daha da maraqlıdır: "Bu dünya heç kimi rahat yaşatmır. Füzuli demişkən, padşahlar da ağır dərd içində ömür sürürlər. Bir duyğulu insan kimi, V.Novruzun da dərdləri çoxdur. Necə ki Vətən torpağı dardadır, "Vətəndə vətənsizəm" deyir, "Məni yaşamağa qoymaz bu dünya" deyir, "Ömrümün yolları dumandı", "Həyat gözlərimdə gümandı" deyir, arzular, qurub-yaratmaq eşqi "ümman kimi olsa da", insan şübhə içərisində, güman içərisində yaşayır, səksəkəli həyat sürür. Doğma Qarabağ düşmən tapdağı altında olduğu üçün, Vətənini könlü istədiyi kimi gəzib dolana bilmədiyi, Vətənin böyük bir parçasından ayrı düşdüyü üçün özünü qürbətdə sayır, qürbət həyatı keçirdiyini söyləyir, satqınlara lənət oxuyur: "İlahi, sən qoru bizləri bizdən", "Vətənimdə vətənsizəm, Bu dərdim öldürər məni" deyir". Azərbaycan ədəbi-mənəvi mühitində yandırıcı istedadla görünənlər az deyil. Amma təvazökarlığın, abır və həyatının qatı pərdəsi arxasında qalanlar da az deyil. Vəliyulla Novruz uzun müddət əyalətdə yaşayıb. Ancaq son bir neçə ildə üzünün qabağındakı örtü buludunu dağıdaraq göstərib ki, bəs, mən də varam. Və burada tədqir olunan cəhət odur ki, Vəliyulla Novruz "mən də varam" demir. Onu göstərən, görə bilən görkəmli sənət, ədəbiyyat adamları üzə çıxır. Və bunları mən ona görə sadalamaq istəmirəm ki, bu adları və ünvanları görkəmli ədəbiyyatşünas alim Qurban Bayramovun yazısında da görə bilirəm.

Sözə, sənətə təmənnasız, qərəzsiz münasibət həmişə mənəvi alqış, səssiz razılıq duyğusu, məmnunluq duyğusu yaradır.

Tədqiqatçı ədəbiyyatşünas Qurban Bayramov Vəliyulla Novruzun yaradıcılıq potensialını kifayət qədər öyrənən və qiymətləndirə bilən müəlliflərdəndir. O, ədəbi səhnənin önündə olan və arxasında qalan müəlliflərin yaradıcılığını tədqiq etmək sahəsində kifayət qədər təcrübəlidir. Yaxşı bilir ki, bəzi müəlliflər həm obyektiv, həm də subyektiv səbəblərdən ədəbi arenanın gözünün önündə olmaya bilər. Bu, o demək deyil ki, onlar yazmırlar, yaratmırlar. Belə bir mübahisəli görünəcək dərəcədə müəlliflər sırasında Vəliyulla Novruz da var. Necə ola bilər ki, sən bu qədər istedadlı, hər hansı bir ədəbi əsərinlə, şeirinlə, publisistikanla, ədəbi-tənqidi yazınla görünmək gücündə olasan və görünməyəsən? Bax, bu, sözün həqiqi mənasında, ədəbi obraz üçün son dərəcə facianə bir məqamdır. Amma xoşbəxtlik, əlbəttə, bu bədnam "xoşbəxtlik" ifadəsini ona görə bu yerdə işlətmək yerinə düşür ki, gec də olsa, Vəliyulla Novruz kimi müəllifləri görə bilən, dəyərləndirə bilən müəlliflər var və görünür.

Tənqidçi ədəbiyyatşünas Qurban Bayramov Vəliyulla Novruz adlı bizim çox istedadlı şairimizin ilkin tədqiqatçılarından biridir. Onun Vəliyulla Novruz yaradıcılığına münasibəti kifayət qədər əhatəlidir. Və Vəliyulla Novruzun yaradıcılığına münasibətdə müəlliflərin yerini göstərməklə, həm də şairin özünün sözə münasibətdə siqlət yerini göstərir. Qurban Bayramov yazır: "Onun bu günlərə qədər "Bu dünyada nə görmüşəm hələ mən", "Bu gecə gecənin içindən keçdim", "Lalələr tonqal təkin yanır" şeirlər kitabı var. Dördüncü kitabı çapa hazırlanır... 2016-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür... Qapı-pəncərə döyənlərdən deyil... Səmimi və təvazökardır... Yaradıcılığı haqqında mötəbər ədəbiyyat adamları – Musa Yaqub, Məmməd İsmayıl, Fikrət Qoca, Qəzənfər Kazımov, Qəşəm Nəcəfzadə, Vaqif Yusifli, İntiqam Qasımzadə, Sona Vəliyeva, Qulu Ağsəs, Əli Rza Xələfli, İsmayıl Kazımov, Ədalət Salman və başqa qələm dostları rəğbətlə söz açıblar, fikir söyləyiblər, şeirlərini bəyənərək dərc ediblər...". Nə demək olar, Q.Bayramov kimi nüfuzlu bir söz sahibi bu qədər adlar çəkir, təhlillər aparır, bütün bunlar o deməkdir ki, arada sənət var, yaradıcılıq var... Başqa ünvanla desək, sənətkar var, söz, sənət sahibi var!

Əziz dostum, sənin sənətini, sözünü əyarlamaq, ona dəyər vermək, şübhəsiz, mənim üçün ən üstün bir məqam olmalıdır. Ancaq mən istəyirəm ki, səninlə aramdakı dostluq və ünsiyyət məqamından daha üstün tərəf kimi böyük söz sərraflarının fikir və düşüncələrini arayaərsəyə gətirim. Bu gün sənin kimliyin - əlbəttə, şəxsiyyətin - haqqında hər hansı bir kimsənin mübahisəsi olmaz. Sən bir insan kimi yüksək aliməqam səviyyəsində görünürsən - qalır sənin yaradıcı tərəfin... və bu tərəfin özü də, əslində, mübahisəli deyil. Böyük simaların sənin haqqında dedikləri bu gün Azərbaycan ədəbi mühiti üçün qəbul olunandır. Ən başlıcası, gecələk üçün dəyərdir. Bu günün fikirləri bəzən mübahisəli görünə bilər. Ancaq böyük gələcəkdə böyük simaların düşüncələri mübahisəsiz olaraq meyar kimi qəbul olunur.

Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, professor Q.Kazımov yəqin ki, sənin yaradıcılığını dəyərləndirərkən uzaq gələcəyi sözünün üfüqlərinə gətirə bilib: "Vəliyulla Azərbaycanın gözəl təbiətinin təsvirində də məcazların köməyi ilə sosial-ictimai məzmun ifadə edir, münasibət bildirir. Payız fəsli, payız mövzusu şairin ən çox sevdiyi, ən çox şeir həsr etdiyi mövzulardandır. "Payız lövhəsi", "Payız gətir", "Payızı sevməyir durna qatarı", "Nədən gecikdin, payız", "Bu payız içimi üşüdür mənim", "Bu payız gözümdə qızıl payızdı", "Payızda nə gözəl olar meşələr" şeirlərində payızın gözəlliklərindən zövqlə danışan şair onun məhsuldar təbiətini, fəsillər içərisində yerini sevə-sevə təsvir edir, payız dumanına ictimai məzmun verir. Təbiətin payızı gözəl olsa da, insan ömrünün payızı o qədər də xoş təəssürat doğurmur.



"Payız lövhəsi" şeri bir növ M.Qorkinin "Fırtına quşu" mənsur şerini xatırladır. Payız göylərində bu bulud qaralaqarala, əzizini davada itirmişlər kimi havadan asılı qalıb, dünyanın dərdini, qəmini qəlbinə yığıb, pərişan-pərişan göyləri süzür, nakam gəlin kimi qara paltara bürünüb yaslı qalıb. Di gəl ki, hönkürüb ağlaya bilmir. "Torpağın dodağı çatçat olubdur, Nədən göy gurlayıb şimşək çaxmayır?". Amma yağacaq, belə qalmaz, mütləq yağacaq:

Bir azdan üfiqin çatılır qaşı,
Pozulur göylərin qüzeh naxışı.
Küləklər yalayır torpağı, daşı,
Yağır dayanmadan leysan yağışı...

Hər saralmış yarpaq sevgili ilə bağlı gözəllikləri tənha seyr eləmək, qəriblik, qəm-qüssə gətirir, göz yaşı gətirir:

Payız yağışları tək
Axırsan gözlərimdən.
Fəsillər də dəyişsin,
Yazı, yayı ötür, gəl.
Təkcə qızıl payızı
Sən özünlə götür gəl...

Vəliyullada sözü ustalıqla mənalandırma qabiliyyəti var. Payız həsrətini, payızın gecikməsindən doğan kədərini: Həsrətim çiçəkləyib, Qəlbimi qübar alıb. Buludlar da suyunu, İndi gözümdən içir – kimi zərif düşüncələrlə ifadə etmişdir. Payız, doğrudan da, gözəldir: Dünyanın ən gözəl qızı payızdı, Solub-saralsa da gülü, çiçəyi, İnsanın üzünə gülür çöl, çəmən". Əgər sözə meydan verməli olsaq, sənin sözünün bədii imkan və güclərini araya çəkməli olsaq, onda mətləb daha çox uzanar.

Əziz dostum və qardaşım, Vəliyulla Novruz, səninlə birgə bu dünyanın ağrıəzab yolunu çəkməkdəyik. Hərəmiz bu ağrını bir cür çəkirik; canımızda çəkirik, sözümüzdə çəkirik, kimliyimizdə çəkirik, bizimlə birgə nəfəs alan insanların ruhlarında, duyğularında çəkirik... Əlbəttə, söz uzanır...

Əziz dostum, səni çox tərəfdən sözə çəkmək olar. Həm də səni zəngin məlumatı, tükənməz bilgi xəzinəsi olan ziyalı kimi tanıyırıq. Bu səbəbdən publisist tənqidçi kimi də sevilirsən. Məmməd İsmayıl haqqında ədəbi tənqidi yanaşma ilə qələmə aldığın qeydlər oxucuların yaddaşından hec vaxt silinməyəcək. Sən cəsarətli söz ustadı kimi tənqidin tənqidi cəbhəsində də görünmüsən... bu sahədə də əbədi görünmək haqqını özünə təmin etmisən. Bir də sənin böyük rütbən Azərbaycan ziyalısı olmaq haqqındır. Baxmayaraq ki, nə qədər millisən, bir o qədərdə bəşəri ruh daşıyıcısısan. Böyük dostsan, dostlarınla birgə halal çörək kəsmək qüdrətini də Tanrı səndən əsirgəməyib.

Əziz qardaşım, Vəliyulla Novruz, müşahidələr göstərir ki, indiki bütöv kişi və ailə başçısı - ər olmaq qıtlığı mühütündə sən sevilən, təqdir olunan böyüklərdən birisən. Ailə qayğısıyla yaşamaq, sevgili həyat yoldaşı olmaqkimi keyfiyyətlərin təbiətində bəsirət gözü açıq olanlara çox aydın görünür.

Gözəl ata kimi ləyaqətli övladlar böyütmüsən. Gözəl qızların ağıl və idrak sahibidirlər, bunu imzalarından da görür və tanıyırıq.

Əzizimiz Vəliyulla Novruz, daha xoş, gözəl günlərəcən... nəvəli, nəticəli günlərəcən. Koroğlu demiş, yüzəcən ömür arzuladım. Yaz, yarat.

**Adınla, sanınla fəxr edən dostlarından biri:**

*Əli Rza XƏLƏFLİ*

*09.07.2020*